**Fatimə SÜLEYMANOVA**
**Azərbaycan Turizm**
**və Menecment Universiteti**
**suleymanovaf8@gmail.com**

# "XƏMSƏ" POEMALARINA HƏSR OLUNMUŞ SÜJETLİ XALÇALARIN İDEYA VƏ KOMPOZİSİYA BAXIMINDAN TƏSNİFATI

Milli mədəniyyət tariximizdə özünəməxsus yer tutan, dekorativ-tətbiqi sənətin ən gözəl nümunələrindən olan xalçalarımız təkcə valehedici məişət əşyası olaraq qalmamış, eyni zamanda hərtərəfli tədqiq edilib öyrənilmişdir. Arxeoloji materiallar və yazılı mənbələr əcdadlarımızın hələ eramızdan əvvəl də bu sənətlə məşğul olduğunu sübut edir. Xalçalarımız haqqında qiymətli məlumatları orta əsrlərdə ölkəmizə səyahət etmiş ərəb və İran tarixçilərinin, daha sonra isə Avropa səyahətçilərinin əsərlərindən əldə etmək mümkündür.

Azərbaycan xalqının rəmzinə çevrilən bu sənət növünün tərəqqisi XX əsrdə – respublikamız müstəqillik əldə etdikdən sonra müxtəlif istiqamətlər almağa başladı. Müxtəlif elementlər və fərqli təsvirlərlə bəzədilmiş yüksək bədii dəyərlərə malik xalçalarımızın inkşafındakı bu uğurlar məhz dahi xalçaçı alim Lətif Kərimovun adı ilə bağlıdır.

Azərbaycan xalçasının uzun illərdən bəri tədqiqi ilə məşğul olan görkəmli xalçaşünas-alim Lətif Kərimovun "Azərbaycan xalçası" adlı üçcildliyi Azərbaycan xalçasının əsl ensiklopediyası hesab olunur. Lətif Kərimov Azərbaycan xalçaçılığının arealını Cənuba və Şimala bölmədən bütövlükdə Azərbaycan xalçasının inkişaf genezisini izləyərək, ilk dəfə olaraq xalça növlərinin dəqiq təsnifatını vermiş, sırf Azərbaycan xalçalarını İran, Qafqaz və s. xalçalardan fərqləndirmişdir. Çoxlu faktiki materialı öyrənmək əsasında o, belə bir əsaslandırılmış nəticəyə gəlmişdir ki, "...Azərbaycan həmişə Qafqaz

xalçaçılığı üçün məktəb olmuşdur”. “Qafqaz xalçaları” kimi şöhrət qazanmış xalça kompozisiyalarının 90%-ni Azərbaycan ustalarının kompozisiyaları təşkil edir”. Lətif Kərimov xalça istehsalı texnikası ilə bağlı olan bir çox sözlər (əriş, arğac, xalı, xalça, kilim, məfrəş, palaz və s.) toplayıb sistemləşdirmiş və onların türkmənşəli olduğunu aşkar etmişdir.

Bu gün Azərbaycan xalq sənətinin geniş yayılmış növlərindən olan xalça nümunələrimiz istər dünyanın, istərsə də ölkəmizin bir sıra muzeylərində sərgilənir. Bu muzeylərdən biri də nadir və unikal eksponatların qorunub nümayiş edildiyi, dahi Nizami Gəncəvinin adını daşıyan Milli Azərbaycan Ədəbiyyatı Muzeyidir. Muzeyin “Mədəni irs və mənbəşünaslıq” şöbəsinin “İncəsənət” bölməsinə daxil olan xalça kolleksiyası xüsusi yer tutur. Xalça fondunda öz qədimliyi, milliliyi və gözəlliyi ilə seçilən əsrarəngiz Quba–Şirvan, Gəncə–Qazax, Qarabağ və Təbriz xalça məktəblərinə aid qiymətli əsərlər mühafizə edilir.

Burada mühafizə edilən dədə-baba üslubundakı onlarla xalıdan əlavə xalça rəssamlığının qiymətli nümunəsi kimi əhəmiyyət kəsb edən silsilə süjetli xalçalar diqqəti xüsusilə cəlb edir. Bunlardan biri “Xəmsə” poemalarına həsr edilmiş süjetli xalçalardır. Bəhsi keçən xalçalar Lətif Kərimovun başçılığı ilə ən yaxşı xalça ustaları tərəfindən Bakının “Qalibiyyət” artelində toxunmuşdur. İncə zövqlə işlənmiş xalıların hər biri kifayət qədər böyük olub 2x3 metr ölçüyə malikdir. Azərbaycanın görkəmli rəssamları və toxucuları tərəfindən yaradılmış bu möhtəşəm əsərlər Nizaminin 800 illik yubileyinə kimi hazırlanıb başa çatdırılmışdır. Xalçalardakı ara sahə mərkəzində yerləşdirilmiş süjet kompozisiyalarının eskizləri görkəmli rəssamlar Q.Xalıqov – “Xosrov və Şirin”, M.Şirinov – “İskəndərnamə”, K.Kazımzadə – “Sirlər xəzinəsi” və Ə.Hacıyev – “Yeddi gözəl” tərəfindən hazırlanmışdır. Azərbaycan xalçalarının kompozisiyalarında qədim zamanlardan etibarən poetik süjetlərdən istifadə olunurdu.

Nizami muzeyində 1810-cu ildə M.Füzulinin poemasına toxunmuş “Leyli və Məcnunun səhrada görüşü” xalçası qorunub saxlanılır. Bu xalçada məkanın xüsusi tərtibatı, insan və heyvan fiqurlarının yerləşdirilməsindəki ornamental ritm Şərq təsviri sənət qanunlarına əməl olunaraq toxunmuşdur.

Qeyd edək ki, 1941-ci ildə yubiley münasibətilə toxunan “Xəmsə” süjetli xalçalara işlənmiş kompozisiyaların əsasını sadəcə xalq sənəti deyil, gözəllik idealları, təsviri sənətin mükəmməl elementləri təşkil edir. Müəlliflər kompozisiyaya daxil olan hər incə detalı xüsusi diqqətlə seçməyə çalışaraq gülləri, ağacları, heyvanları, insanları, hətta xarabalıqları belə ideal formaya salmışlar.

“Sirlər xəzinəsi” poemasına həsr olunmuş “İki bayquşun söhbəti” epizodu isə miniatür təsviri sənətinə daha yaxındır. Xalça kompozisiyasındakı mənzərə incə tonlarda işlənsə də, mərkəzdəki iki atlı obrazında daha çox parlaq və dolğun rənglərə – qırmızı və göy rənglərə üstünlük verilmişdir. Kompozisiyanın mərkəzində təsvir olunmuş mənzərə isə bir qədər xoş və lirik təsir bağışlayır. Ön planda xüsusi zövqlə işlənmiş daşlar, güllər, qaya parçaları arxa plandakı solğun xarabalıqların təsviri ilə ümumiləşmişdir. Kompozisiyanın arxa hissəsində işıqlı tonlarla işlənmiş mənzərə, sol hissədəki qurumuş ağac və xarabalıqlar, atlıların çevrədəki məkana nisbətən müstəqil və canlı görkəmləri xalının möhtəşəmliyini vurğulayan amillərdəndir.

“Xosrov və Şirin” mövzusundakı xalça kompozisiyası isə fərqli formatda tərtib edilmişdir. Uçan qayanın enerjili dinamikası, tutqun səma, Fərhadın gərgin üz ifadəsi, duruşundakı qətiyyət və iki atlı qadının – Şirinin və rəfiqəsinin onu izləməsi hər bir predmetin ekspressiyasını qüvvətli edir. Kompozisiyada qaya sağa doğru diaqonal istiqamətdə əyilmişdir. Parçalanan gərgin xətlər isə Fərhadın dağıtdığı qayaların cizgilərini göstərərək tamaşaçıda təşviş hissi oyadır.

“İskəndərnamə” poemasına toxunmuş “İskəndər ilə Nüşabə gəzintidə” xalçasının mərkəzində Nüşabə və İskəndər gözəl mənzərəli yerdə at belində təsvir edilmişlər. Onların ağ və qara ərəb atları Nüşabənin səma fonunda çəhrayı libası ilə həmahəng çalarlarla işlənmişdir. Təsvir olunan detalların hər birində rənglər mahir ustalıqla seçilmişdir. Kompozisiyanın arxa hissəsində işlənmiş atlılar, qala divarları, sağ hissədəki ağac, quşlar və yerdəki çiçəklərin valehedici görkəmləri xalçadakı təsvirin gücünü daha da vurğulayır.

N.Gəncəvinin yubileyi münasibətilə toxunan xalçaların hər biri üçün muzeydə ayrıca zallar ayrılmış, onların hazırlanmasında görkəmli xalçaşünas alim L.Kərimovun böyük rolu olmuşdur. L.Kərimov bu qədim sənətin möhtəşəmliyini və zərafətini layiqincə ortaya çıxarmaq üçün var gücü ilə çalışmışdır. Xalça ustaları “Xəmsə” poemalarına xas kompozisiya şərtiliyini realist süjet xətti ilə məharətlə əlaqələndirə bilmiş, ənənəvi xalçaçılıq sənəti ilə poeziyanı rəssamlıqla qovuşdurmuşlar. Hər bir xalıda süjetli xalçalarımıza xas olan və orta əsrlərdən gələn dəsti-xətt qabarıq şəkildə vurğulanmış, Nizami poeziyasının məna və üslubunu müəyyən edən detallara olduqca ifadəli toxunulmuşdur.

**Fatima Suleymanova**

## CLASSIFICATION OF CARPETS DEDICATED TO "KHAMSA" POEMS ACCORDİNG TO IDEA AND COMPOSITION

***Summary***

Rare and unique exhibits are preserved in the National Museum of Azerbaijani Literature named after Nizami Ganjavi, one of the outstanding representatives of our national-literary heritage. Among exhibits preserving in the museum examples of Azerbaijani carpet-making art possess rich history take significant place.

Those amazing ornamental art pieces reflecting rich literature and history of tales and eposes, dressing culture, living rules, folklore and mythology of Azerbaijan play significant role in the propaganda of our culture and art.